## Şirinxanım Şadiman

### Şikayət Etmirəm

Tale, sənə mən şikayət etmirəm,
Bunu mənə yazan yazdı bilirəm.
Çəkdiyimi heç hekayət etmirəm,
Həyat dərin quyu qazdı bilirəm.

Ömür yolun basdı acı tikanlar,
Ötdü keçdi yan-yörəmdən imkanlar,
Qopdu zaman gəmisindən sükanlar,
Boşluqlarda ruhum azdı bilirəm.

Üşüyürəm canım dözmür sərtliyə,
İlahidən yol varmı mən dərdliyə?!
İşlədikcə ağrılarım iliyə...
Ürəyimdə çox ayazdı bilirəm.

İçim tənha, çolüm tənha nə edim?
Dərdlərimi kabab edim çox yedim,
Canım bilib saldım könlə, can dedim,
İçindəki nə avazdı bilirəm...

Göy üzünə çox dikəldi qollarım,
Açılmadı, kilidləndi yollarım,
Yaradana bəllidir hər hallarım,
Bəxt dediyim bir dəryazdı bilirəm.

Canımdakı vicvicələr getmədi,
Boran, tufan canımı tərk etmədi,
İtdi günlər, ağrı-aci itmədi,
Günlərimin sayı azdı, bilirəm.

*Şadiman*dan qaçdı getdi zamanlar,
Tapılmadı acıma heç dərmanlar,
Sovrulduqca çəltik təki gümanlar,
Könlüm kökdən düşən sazdı bilirəm.